**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**
**Maliyyə və iqtisadi nəzəriyyə kafedrası**

# SİLLABUS

## Statistika

***(10 kredit (AKTS))***

***Müəllim haqqında məlumat***

***Müəllim: b/m*** Məmmədov Niyaz Nizami oğlu
**Kafedra**: Maliyyə və iqtisadi nəzəriyyə, 1-ci mərtəbə, 118
**İş nömrəsi:** (022) 266-94-53
**Mob**: 050-573-10-35
**İş saatları:** 09:00-17:00
**E-mail: mammadovniyaz@mail.ru**
**Yaz semestri: 2022**

**GƏNCƏ - 2022**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxunmalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim olunan fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

## *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda ənənəvi qaydada keçiriləcək:

Bazar ertəsi- Cümə axşamı,08:30-13:10 (Mühazirə, 2-ci semestr)

## *Fənnin təsviri*

"Statistika" kursunun məqsədi bu istiqamətdə tədris alan tələbələrə qarşılaşdıqları iqtisadi porblemləri təhlil etmək bacarığı, alternativ gəlir mənbələrini mənfəətlik dərəcəsinə görə müəyyən etmək qabiliyyəti, intellektual və operativ qərar qəbul etmə bacarığının aşılanmasıdır. Statistika fənninin tədrisinin məqsədi gələcək mütəxəssislərdə statistik müşahidələr aparmaq, kütləvi statistik məlumatların yekunlaşdırılması və qruplaşdırılmasını həyata keçirmək, ümumiləşdirici statistik göstəricilər sistemini hazırlamaq, statistik cədvəlləri və qrafikləri tərtib etmək, statistik və riyazi-statistik metodları kütləvi sosial-iqtisadi hadisələrin təhlilində tətbiq etmək; statistik materialları iqtisadi-statistik cəhətdən təhlil etmək, kənd təsərrüfatında istehsalın həcminin artmasını, onun iqtisadi səmərəsinin yüksəldilməsi üçün istifadə olunmamış ehtiyat mənbələrini aşkara çıxarılması, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən təsərrüfat formalarının gəlirlərinin artırılması üçün mövcud imkanları aşkara çıxartmaq vərdişləri aşılamaqdır.

.

Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:

- statistik cədvəllər və qrafiklər əsasında elmi tədqiqatların aparılmasının mənimsənilməsini;
- hadisələrdə səbəb və nəticə arasında korelyasiya və reqresiya əlaqələrinin qurulmasının öyrənilməsini;
- statistik təhlilərin aparılması üçün kəmiyyətlərin növlərini və onların istifadə edilməsi prinsiplərini müəyyən etmək qabiliyyətini;
- toplanmış məlumatların düzgün müqayisə edilməsi qaydalarının öyrənilməsini ;
- statistik işlərin aparılmasına dair müvafiq qaydaları tərtib edə bilməyi;
- fənnin tədqiqat obyektini təşkil edən kütləvi sosial-iqtisadi hadisələrin, əhali statistikasının, kəndli (fermer) təsərrüfatlarının, kiçik müəssisələrin, istehsal kooperativlərinin, aqroservis müəssisələrinin, səhmdar cəmiyyətlərin və s.

məlumatlarından istifadə edərək dinamika sıralarının qurulması prinsiplərini praktiki icra etməyi.

***Planlaşdırlan təlim nəticələri***

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

- statistika sahəsində işlərin aparılması və praktiki peşə fəaliyyətində müasir bilik və metodlardan istifadə etməyi;
- statistik hesablamalarda istifadə olunan əsas anlayışların aydın və tam tərifini verməyi;
- kənd təsərrüfatı müəssisələrinin gələcək inkişafı üçün maliyyə hədəfinin müəyyən edilməsi və vəzifələr siyasətinin formalaşdırılmasını;
- intellektual və operativ qərar qəbul etməyi;
- qeyri-müəyyənlik və risk şərtləri daxil olmaqla investisiya qoyuluşu qərarlarının hazırlanması və effektiv şəkildə icra edilməsini;
- statistikada geniş istifadə olunan “Seçmə metodu”nu praktiki olaraq tətbiq etməyi;
- mövcud göstəricilər əsasında müvafiq sahədə gələcək tendensiyanın müəyyənləşdirilməsi üçün proqnozların hazırlanmasını;
- MHS-də istifadə edilən göstəricilərin hesablanmasını praktiki nümunələrdə icra etməyi.

*Fənn üçün 120 saat (10 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər həftə dörd saat mühazirə və dörd saat saatlıq seminar var.*

***Fənnin tematik təqvimi***

| Tarix | Mövzularınadı | Mühazirə (ayrılan saat) | Seminar məşğələsi (ayrılan saat) |
|---|---|---|---|
| Həftə 1 | Statistikanın predmeti, metodu və vəzifələri. | 2 | 2 |
| Həftə 1 | Statistik müşahidə | 2 | 2 |
| Həftə 2 | Statistik məlumatların yekunlaşdırılması və qruplaşdırılması | 2 | 2 |
| Həftə 2 | Statistika cədvəlləri və statistik qrafiklər | 2 | 2 |
| Həftə 3 | Statistika cədvəlləri və statistik qrafiklər | 2 | 2 |
| Həftə 3 | Mütləq və nisbi göstəricilər | 2 | 2 |
| Həftə 4 | Orta kəmiyyətlər | 2 | 2 |
| Həftə 4 | Orta kəmiyyətlər | 2 | 2 |
| Həftə 5 | Variasiya göstəriciləri | 2 | 2 |
| Həftə 5 | Dinamika sıraları | 2 | 2 |
| Həftə 6 | Dinamika sıraları | 2 | 2 |
| Həftə 6 | İndekslər | 2 | 2 |
| Həftə 7 | İndekslər | 2 | 2 |
| Həftə 7 | Seçmə metodu | 2 | 2 |
| Həftə 8 | Qarşılıqlı əlaqələrin statistik üsullarla öyrənilməsi | 2 | 2 |
| Həftə 8 | Sosial-iqtisadi statistikanın ümumi məsələləri | 2 | 2 |
| Həftə 9 | Əhali statistikası | 2 | 2 |
| Həftə 9 | Əmək bazarı statistikası | 2 | 2 |
| Həftə 10 | Əmək məhsuldarlığı və əmək ödənişi statistikası | 2 | 2 |
| Həftə 10 | Milli sərvət statistikası | 2 | 2 |
| Həftə 11 | Milli hesablar sistemi. Makroiqtisadi göstəricilər statistikası | 2 | 2 |
| Həftə 11 | Milli hesablar sistemi. Makroiqtisadi göstəricilər statistikası | 2 | 2 |
| Həftə 12 | Əmtəə və xidmətlər bazarı statistikası | 2 | 2 |
| Həftə 12 | Qiymət, tariflər və inflyasiya statistikası | 2 | 2 |
| Həftə 13 | Maliyyə statistikası | 2 | 2 |
| Həftə 13 | Bank statistikası | 2 | 2 |
| Həftə 14 | Xarici iqtisadi əlaqələr statistikası | 2 | 2 |
| Həftə 14 | İstehsal və tədavül xərcləri statistikası | 2 | 2 |
| Həftə 15 | Əhalinin həyat səviyyəsi statistikası | 2 | 2 |
| Həftə 15 | Sosial sferanın statistikası | 2 | 2 |
| | **Cəmi** | **60** | **60** |

## ***Mühazirənin quruluşu***

Mühazirə müddəti 80 dəqiqə ənənəvi olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər. Mövzudan asılı olaraq mühazirənin saatları dəyişir.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və / və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## ***Seminar***

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Seminarın mövzusundan asılı olaraq seminar saatları dəyişir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən sualları cavablandıran zaman sübut etməlidir ki, keçilən mövzu onun tərəfindən dərk edilib və məntiqi mahiyyəti ona aydındır. Əgər verilən cavablar əzbərlənərsə və səthi olarsa hesab ediləcək ki, tələbə mövzunu mənimsəməyib.Yadda saxlayın ki, tələb və təklif, gəlirlər və xərclər sözlərini tutuquşu da əzbərləyə bilər, amma o, heç zaman iqtisadçı ola bilməz.

Seminarda təqdimatlar və prezentasiya üsulundan geniş istifadə olunacaq. Əvvəlcədən təyin olunmuş mövzuya müvafiq sual tələbələr tərəfindən hazırlanmalı və məşğələ zamanı müəllimin seçdiyi tələbə tərəfindən təqdim olunmalıdır. Çıxış müddəti 5-6 dəqiqədir. Çıxışdan sonra tələbənin mövzusu ətrafında müzakirələr aparılacaq.

Növbəti iki saat ərzində isə praktiki məşğələlərə üstünlük veriləcək. Praktiki məşğələ zamanı müəllim analitik suallar verərək, tələbələrin mövzunun mənimsəmək səviyyəsini yoxlayacaq. Eyni zamanda mövzuya uyğun iqtisadi-riyazi məsələlərin həlli məşğələdə geniş yer tutacaq.

***Tələbələrə tövsiyəmiz:*** dərslərdə aktiv iştirak etmək, suallara cavab verməkdən çəkinməmək, sərbəst məntiqi fikirlər yürütmək və səhv etməkdən qorxmamaq. Yadda saxlayın ki, imtahana qədər tələbənin səhv etmək hüququ var.

## ***Sərbəst işlər***

Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Əks təqdirdə, tapşırıq qəbul edilmir və ümumi baldan çıxılır. Fərdi tapşırıqların gec təqdim edilməsi qəbul edilmir və qiymətləndirilmir. Bununla birlikdə, növbəti ayın balları hesablanarkən, yuxarıdakı şərtlər daxilində fərdi tapşırıqlar yenidən təqdim edilə bilər.

Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin müəyyənləşdirdiyi digər formada aparıla bilər.

### *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

### *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan imtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

### *Tövsiyə olunan ədəbiyyat*


1. Cavadov N.Ə., Ömərov S.Ö. Statistikadan sorğu kitabçası. Gəncə, AKTA, 2002.
2. Cavadov N.Ə., Ömərov S.Ö. Statistikanın ümumi nəzəriyyəsi fənnindən tələbələrin biliklərinin yoxlanılması üçün test sualları (metodik vəsait). Gəncə, AKTA, 2002.
3. S.M.Yaqubov, A.J. Məmmədov. Sosial-iqtisadi statistika. Dərslik. Bakı: “İqtisad Universiteti” nəşriyyatı, 2006.
4. Yaqubov S.M.. Məmmədov A.C. “Sosial-iqtisadi statistika” fənnindən metodik göstəriş. Bakı. “İqtisad Universiteti” nəşriyyatı, 2006.
5. Aslanov A.M. Statistikanın ümumi nəzəriyyəsi və sosial-iqtisadi statistika (dərs vəsaiti). Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2005.
6. Həsənov İ.M. Sosial-iqtisadi statistika. Metodik göstəriş. Bakı, “İqtisad Universiteti” nəşriyyatı, 2006.
7. Zeynallı Ə.T. Azərbaycan kənd təsərrüfatı coğrafiyasının müasir problemləri. Bakı, “Elm”, 2005.
8. S.M.Yaqubov, A.C. Məmmədov. Sosial-iqtisadi statistika. Dərslik. Bakı. «İqtisad Universiteti » nəşriyyatı, 2008.
9. O.Məmmədli, M.İsmayılıv, F.İsmayılov. Statistika nəzəriyyəsi. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, “MRB-R” nəşriyyatı, 2009.
10. İzahlı statistika terminləri lüğəti. Redaktor-əlaqələndirici A.H.Mansurov. Bakı, “Səda” nəşriyyatı 2010.
11. Azərbaycanın statistik göstəriciləri 2010. İllik statistik məcmuə. Bakı, “Səda” nəşriyyatı, 2010.

12. Sosial-iqtisadi statistika. Dərs vəsaiti. O.Q.Məmmədli və b. (dos. O.Q.Məmmədlinin ümumi redaktorluğu ilə). Bakı, “Kooperasiya” nəşriyyatı, 2011.
13. O. Q. Məmmədli, N.Ə.Cavadov, X.N.Cavadzadə. Sosial-iqtisadi statistika Dərslik I,II hissə. Bakı, «MBM» nəşriyyatı, 2014.
14. O. Q. Məmmədli, N.Ə.Cavadov, M.İ. İsmayılov, F.İ. İsamyılov X.N.Cavadzadə. Statistika nəzəriyyəsi. Dərslik . Bakı, «MBM» nəşriyyatı, 2015.
15. Курс социально-экономической статистики Учебник. 8-е изд., Под ред. Назарова М.Г. М: Высшее экономическое образование. 2010 г.
16. Теория статистики: Учебник/ Под ред. проф. Р.А. Шмойловой. - М.: Финансы и статистика, 2006
17. Экономическая статистика. 2-е изд., доп.: Учебник. / Под ред. Ю.Н.Иванова. - М.: ИНФРА-М, 2009.

***Əlavə resurslar***

1. http://www.azstat.gov.az/
2. http://www.economy.gov.az/
3. http://agro.gov.az/
4. Практикум по статистике. Учебное пособие. Зинченко А.П., Шибалкин А.Е, Тарасова О.Б., Шайкина Е.В. – М.: Колос, 2007.
5. Елисеева И.И. Статистика. Учебник. – М.: Изд-во Проспект, 2007г.
6. Зинченко А.П. Сельскохозяйственная статистика с основами социально-экономической статистики. Учебник. – М.: Издательство МСХА, 2008.